

Fəzail İsmayıl Böyükkişi

*1884-cü ilin yanvar ayının 31-da Azərbaycan Demokratik Cumhuriyyətinin qurucusu, Azərbaycan Milli Dövlətçilik ideologiyasının böyük ideoloqu Məhəmməd Əmin Rəsulzadənin dünyaya gəldiyi gündür. Bu mübarək gün münasibətilə Əmin bəyə həsr etdiyim poemalardan kiçicik parçaları diqqətinizə çatdırıram.*

# Əmin bəyin ruhu ilə söhbət

...Şairlik eləmi ucuz sənətmiş,
Yox, bunu deməzsən Məhəmməd Əmin...
Cəhənnəmmi doğrudanmı cənnətmiş???
Bax, bunu deməzsən Məhəmməd Əmin...
Yox, bunu deməzsən Məhəmməd Əmin...

Mən ki varisiyəm Əhməd Cavadın,
Şairlikdə belə baxtı neyləyim?
Könlümdən heç zaman silinməz adın,
Kin-qərəz püskürən vaxtı neyləyim?
Şairlikdə belə baxtı neyləyim?

Coşub Şəhriyara dönmək istərəm,
Füzulidən qalan şikayətimdir.
Yenilməz dərdləri yenmək istərəm,
Demirəm yetişən nəhayətimdir.
Füzulidən qalan şikayətimdir.

Önümdə sıldırım çataq-çatağa,
Arxamda da uçurum dibi görünməz.
Sən sevən Vətənə canım sadağa,
Şair qorxaq olmaz, şair sürünməz.
Arxamda da uçrum dibi görünməz.

Namərd elə bilər çoxdan ölmüşəm,
Mərd elə bilərmi Məhəmməd Əmin?!!
Mən nurdan törəyib, haqdan gəlmişəm,
Haqq da yenilərmi Məhəmməd Əmin?!!
Mərd elə bilərmi Məhəmməd Əmin?!!

O nurlu ruhundan allam curəti,
Çox da yaşlaşmışam, yaşa dolmuşam.
Mənə dünyaların yoxdur sərhəddi,
Ölümü öldürüb, ölməz olmuşam.
Çox da yaşlaşmışam, yaşa dolmuşam.

Dünya varı axı kimə qalıbdır?
Dünya varı niyə olub möcüzə?
Əzrail gələndən canı alıbdır,
Ölüm çoxalsa da görünmür gözə.

Dünya varı niyə olub möcüzə?
...İnsanlığa hüdudu yox nifrətin,
Üfürürlər, yanan közdə qalmışam.
Burda yeri varmı sözün, söhbətin,
Düzü demişəm ki, düzdə qalmışam.
Üfürürlər, yanan közdə qalmışam.

Əmin bəy varlığım, Əmin bəy özüm,
Əmin bəy olasan gəlib-gedəndə.
Bəsimdir düzlüyüm, bəsimdir düzüm,
Mühacirətdəyəm mən də Vətəndə.
Əmin bəy olasan gəlib-gedəndə.

Qanmazlar qananı belə qandırar,
Sonra da adını kafir qoyarlar...
Haqq deyəni tonqallarda yandırar,
Diri-diri dərisini soyarlar...
Sonra da adını kafir qoyarlar...

Şerimlə əbədi bəxtiyaramsa,
Demək haqqı deyən şair olaram...
Allah məndə, mən Allahda varamsa,
Əmin bəy mən necə kafir olaram?!

Demək haqqı deyən şair olaram...

Tonqadan ta bəri Nadir şaha tək,
Başçım kim olubsa birinci sənsən!
Ən qədim keçmişdən, son sabaha tək,
Əbədi sevdiyim bir inci sənsən!
Başçım kim olubsa birinci sənsən!

O nurlu ruhuna and içirəm ki,
Adınla hər zaman fəxr edəcəyəm!
Fəzlimlə dahimi düz seçirəm ki,
Mən sənin yolunla düz gedəcəyəm!
Adınla hər zaman fəxr edəcəyəm!

Türküstan.- 2022.- 1-7 fevral.- S.12.